

**Hər dəfə Şəkiyə yolum düşəndə özümü tamam başqa aləmdə hiss edirəm. Respublikamızın bu dilbər guşəsi mənə başdan-başa mədəniyyət beşiyini, incəsənət mərkəzini, muzeyi xatırladır. Bu yerlərin təbiəti nə qədər gözəl və səfalıdırsa, insanları da bir o qədər zəhmətkeş, istiqanlı, qonaqsevər, mehriban, istedadlı, uzaqgörən, elinə-obasına bağlıdır.**

Şəki

# Zəngin təəssüratla

Dediklərimizi sübut etmək üçün bu qədim və həmişəcavan torpağın yetirmələrini göz önünə gətirmək kifayətdir. Bir sözlə, nə Şəkinin özünəməxsus təamlarından doymaq olur, nə şux yumorundan, nə də bir-birindən gözəl insanlarından.

İşini ürəkdən sevən, vəzifəsinə məsuliyyət və yaradıcılıqla yanaşan belə insanlar mədəniyyət sahəsində daha çoxdur. Aydın müəllimin təyinatından sonra mehriban bir ailəni xatırladan mədəni-maarif müəssisələrinin uğurları əvvəlki illərə nisbətən daha çoxdur. Gəlin, Şəki Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aydın İbrahimxəlilovu birgə dinləyək.

- Şəki Mədəniyyət və Turizm Şöbəsi nəzdində 174 şəbəkə, o cümlədən, 70 klub müəssisəsi, 87 kitabxana, 4 yeddiillik uşaq musiqi məktəbi, 1 uşaq incəsənət məktəbi, 7 muzey, 1 Dövlət Tarix-Memarlıq Qoruğu, 1 Dövlət Rəsm Qalereyası, 2 mədəniyyət və istirahət parkı və 1 Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərir.

Mədəniyyət müəssisələrində təmsil olunan işçi və qulluqçuların ümumi sayı 1249 nəfərdir. Onlardan 963 nəfəri qadın, 286 nəfəri kişidir.

İşçi və qulluqçuların 78 nəfərinin ali, 819 nəfərinin orta ixtisas, 346 nəfərinin orta, 6 nəfərinin natamam orta təhsili vardır. Natamam orta təhsillilər və orta təhsillilərin əksəriyyəti texniki heyətdən ibarətdir.

Şəki Mədəniyyət və Turizm Şöbəsi nəzdindəki mədəni-maarif müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirmək sahəsində xeyli iş görülmüşdür. MKS-nin S.Rəhman adına 2 saylı, M.P.Vaqif adına 7 saylı kitabxana filiallarında, S.Vurğun və Ü.Hacıbəyov adına mədəniyyət evlərində, habelə şəhər uşaq incəsənət məktəbində və 2 saylı uşaq musiqi məktəbində əsaslı və cari təmir işləri aparılmışdır.

H.Əliyevin xatirə muzeyinin inzibati otaqlarında və R.Əfəndiyev adına tarix-diyarşünaslıq muzeyinin ekspozisiya zallarında cari təmir işləri görülmüşdür.

Şəki Şəhər İcra Hakimiyyəti rəhbərliyinin təşəbbüsü ilə M.Füzuli adına mədəniyyət və istirahət parkının filialı olan "20 yanvar" bağında müasir standartlara cavab verən və rəngli fəvvarəsi olan su hovuzu tikilib istifadəyə verilmişdir. Hazırda M.F.Axundov adına mədəniyyət və istirahət parkında geniş miqyaslı yenidənqurma işləri aparılır. Həmin parkın ərazisinin böyük hissəsini əhatə edən su hovuzlarında da rəngli fəvvarəsi olan musiqili su hovuzlarının inşası davam etdirilir.

R.Əfəndiyev adına tarix-diyarşünaslıq muzeyinin həyətindəki giriş qapısı öz orijinallığı ilə seçilən yeni qapı ilə əvəz olunmuşdur, buranın səki və pilləkənləri bərpa olunmuşdur. Muzeyə yanğın təhlükəsizliyi ilə bağlı əlavə olaraq yeni qapı qoyulmuşdur.

Şəki Dövlət Rəsm Qalereyasında sanitar qovşağı istifadəyə verilmişdir. Xalq tətbiqi sənət muzeyinin ərazisindəki dəmir məhəccərlər bərpa olunmuş, rənglənmişdir.

R.Əfəndiyev adına tarix-diyarşünaslıq və Xalq tətbiqi sənət muzeylərinin su xətləri yenidən bərpa olunmuş, nəticədə həmin mədəniyyət müəssisələrinin su təchizatı qismən yaxşılaşmışdır. S.Rəhmanın ev-muzeyinin həyətində su hovuzu tikilmişdir.

Mədəniyyət müəssisələrinin böyük əksəriyyətində elektrik-quraşdırma işləri aparılmış, 27 mədəniyyət müəssisəsi yeni sayğacla təchiz edilmişdir.

Hazırda XIX əsrə aid tarix-mədəniyyət abidəsi olan İ.S.Nakam adına mərkəzi kitabxanada əsaslı bərpa işləri aparılır.

Əsaslı və cari təmir işləri mədəniyyət müəssisələrində də aparılmış, onların müxtəlif texniki vasitə və avadanlıqlarla, həmçinin, bərk və yumşaq inventarlarla təchizatı sahəsində müəyyən tədbirlər görülmüşdür.

Mədəniyyət müəssisələrinin əksəriyyəti üçün yeni avadanlıqlar, o cümlədən, stol, stul, pərdə, kompyuter, printer, televizor, kitab şkafı, kitab rəfi və s. alınmışdır. Şəhərin iri klub müəssisələri müasir səsgücləndirici aparat və qurğularla təchiz olunmuşdur.

2008-ci ildə Şəkidə Turizm İnformasiya Mərkəzi rəsmən fəaliyyətə başlamışdır. Şəki Mədəniyyət və Turizm Şöbəsi tabeliyində rəsmi qeydiyyatdan keçmiş 82 dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə vardır.

Onların mövcud texniki vəziyyəti barədə müvafiq aktlar tərtib edilməklə, abidələrin üzərinə qoruma lövhələri vurulmuş, fotoşəkilləri çəkilmiş və yerləşdikləri ərazilərin xəritələri hazırlanmışdır. Hesabat ilində Şəki rayonunun Fazıl kəndi ərazisində yerləşən qədim insan yaşayış məskəni olan "Təpəbaşı" nekropolu əsaslı bərpa olunmuşdur. Hazırda XIX əsrə aid, yerli əhəmiyyətli tarix-mədəniyyət abidəsi olan və MKS-nin İ.S.Nakam adına mərkəzi kitabxanasının fəaliyyət göstərdiyi binada əsaslı bərpa işləri aparılmaqdadır. Yaxın gələcəkdə "Şəkixanovların evi"ndə bərpa işlərinin başlanılması nəzərdə tutulur.



Mədəniyyət və Turizm nazirinin "Xalq teatrlarının I Ümumrespublika Baxış-Müsabiqəsinin keçirilməsi haqqında" 19 ferval 2008-ci il tarixli 83 saylı əmrinə əsasən mart ayının 28-29-da Şəki şəhərində Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ rayonlarının, həmçinin, Şəki şəhərinin xalq teatrlarına baxış-müsabiqə keçirilmişdir.

Hazırda Şəkidə xalq tətbiqi sənətinin 18 növü üzrə 300 nəfərdən çox sənətkar fəaliyyət göstərir. Həmin sənətkarlar, əsasən şəbəkə, təkəlduz, dulusçuluq, ağac və saxsı məmulatları üzərində işləmə, daş və gəc üzərində işləmə, tikmələr, toxuculuq, xalçaçılıq, misgərlik, zərgərlik, papaqçılıq, tənəkəçilik, sandıqçılıq, musiqi alətlərinin hazırlanması və bərpası, xarratlıq sahəsi ilə məşğul olurlar.

Xalq sənəti ustalarının yaradıcılığı daim diqqət mərkəzində saxlanılır, onlar müxtəlif tədbirlərə cəlb olunur, istər ölkəmizdə və istərsə də xarici ölkələrdə təşkil olunan sərgilərdə fəal iştirak edirlər. Xalq sənətkarlarının normal və məhsuldar işləməsi üçün onlara əlverişli şərait yaradılmasına xüsusi fikir verilir.

Bu yaxınlarda xalq sənətkarları üçün "Yuxarı Baş" Tarix-Memarlıq Qoruğu ərazisində yerləşən qədim tarix-mədəniyyət abidəsində münasib yer ayrılmışdır.

Son illər Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Yeni mehmanxanalar, kotteclər, turizm xidməti obyektləri, digər sosial obyektlər inşa edilir. Körpülər tikilir, yollar salınır. Şəhərdə geniş miqyasda tikinti-abadlıq işləri aparılır. Meydan və xiyabanlar öz simasını dəyişir, gözəlləşir.

Bütün bunlar şübhəsiz ki, Şəkiyə gələn turistlərin sayının böyük sürətlə artmasına geniş imkanlar açır. Son illərdə istər respublikamızın ayrı-ayrı bölgələrindən, istərsə də yaxın və uzaq xaricdən bu şəhərə gələn turistlərin say dinamikasına nəzər salsaq, görərik ki, əgər 2004-cü ildə Şəkiyə cəmi 2800 nəfər turist gəlmişdisə, 2005-ci ildə bu rəqəm 6000 nəfərə, 2006-cı ildə 9000 nəfərə, 2007-ci ildə 11500 nəfərə, 2008-ci ildə isə 13000 nəfərə çatmışdır.

Şəkidə yeni turizm marşrutlarının yaradılması sahəsində də tədbirlər həyata keçirilir. Ən yaxın gələcəkdə XVIII əsr tarix-memarlıq abidəsi olan Şəkixa-

novların evində, XVIII-XIX əsrlərdə inşa olunmuş tarix və mədəniyyət abidəsi olan Aşağı Karvansaray binasında əsaslı bərpa işlərinin başlanılması nəzərdə tutulur. "Gələrsən, görərsən" qalasında isə konservasiya aparılması planlaşdırılır.

Rayonun Fazıl kəndində aparılan arxeoloji qazıntılar zamanı burada insanların qədim yaşayış məskəni - "Təpəbaşı" nekropolu aşkar edilmişdir. Hesabat ilində bu nadir mədəniyyət abidəsində son tamamlama işləri başa çatdırılmış və istifadəyə verilmişdir. Yaxın gələcəkdə "Təpəbaşı" nekropolunun da beynəlxalq turizm marşrutuna daxil ediləcəyi proqnozlaşdırılır.

Artıq dördüncü ildir ki, Respublika Atçılıq Turizm Mərkəzində ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə atüstü oyunlar və Prezident Kuboku uğrunda çövkan milli oyunları keçirilir.

May ayının 8-dən 10-dək Daşüzdəki atçılıq turizm mərkəzində 12 rayonun komandasının iştirakı ilə Ulu Öndərin anım gününə həsr olunmuş atüstü oyunlar festivalı təşkil edilmişdir. Festival şəkililərin parlaq qələbəsi ilə başa çatmışdır.

Şəki Mədəniyyət və Turizm Şöbəsi nəzdində 4 xalq kollektivi - "Zirvə" xalq instrumental ansamblı, "Zorxana" xalq rəqs kollektivi, "Pəhləvanlar ailə-sirk" xalq kollektivi fəaliyyət göstərir.

Ayrı-ayrı mədəniyyət evləri və klublarda "Qala", "Marxal", "Səma", "Xəzinə", "Şəlalə", "Gənclik" instrumental ansamblları, Ə.Abdullayev adına muğam üçlüyü, Ə.Şəkili adına zurnaçılar dəstəsi, aşıqlar ansamblı, "Abay" rəqs kollektivi, "Dədə Qorqud" folklor kollektivi və s. bədii özfəaliyyət kollektivləri vardır.

İl ərzində 231 bədii özfəaliyyət dərnəyi fəaliyyət göstərmişdir ki, həmin kollektivlərdə 3477 nəfər həvəskar məşğul olmuşdur.

Klub müəssisələrində tibb, mühasibatlıq, klub işi, kitabxanaçılıq, dərzilik, biçmə, tikmə, evdarlıq, aşpazlıq, idman həvəskarları, təbiəti sevənlər kimi marağa görə klublar da fəaliyyət göstərmişdir. 71 maraq klubunda 866 nəfər həvəskar məşğul olmuşdur.

Eyni zamanda klub müəssisələrində kompyuter, xarratlıq, şəbəkəçilik kimi texniki kurslar və dərnəklər də fəaliyyət göstərmişdir. 20 texniki dərnəkdə 205 nəfər həvəskar məşğul olmuşdur.

2008-ci ildə Şəki Mədəniyyət və Turizm Şöbəsinin şəbəkəsinə daxil olan mədəni-maarif müəssisələrinin fəaliyyəti haqqında ölkənin müxtəlif kütləvi informasiya vasitələrində, o cümlədən Azərbaycan Milli Televiziyasında, İctimai televiziyada, "Lider", "Space" və "ANS" telekanallarında, respublika radiosunda, "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Zaman", "Mədəniyyət", "Şəki", "Şəkinin səsi", "Region Şəki", "Şəki bələdiyyəsi" və digər qəzetlərdə, habelə "Mədəni-maarif işi" və "Qafqaz+" jurnallarında müvafiq olaraq veriliş və proqramlar səsləndirilmiş, materiallar dərc olunmuşdur.

Şöbənin nəzdində fəaliyyət göstərən muzey müəssisələrinin fondlarında ümumilikdə 8707 ədəd eksponat mühafizə olunur. 2008-ci ildə R.Əfəndiyev adına tarix-diyarşünaslıq muzeyinə 4500 nəfər, Xalq tətbiqi sənət muzeyinə 4600 nəfər, Kiş Tarixi-Memarlıq Qoruq-Muzeyinə 5745 nəfər, M.F.Axundovun ev-muzeyinə 700 nəfər, R.Əfəndiyevin ev-muzeyinə 700 nəfər, S.Rəhmanın ev-muzeyinə isə 1115 nəfər tamaşaçının gəlişi qeydə alınmışdır.

Muzeylərə gələn tamaşaçılara ekskursiya və fondlar haqqında ümumi məlumatlar verilir. Ekskursiyalar Azərbaycan, rus və ingilis dillərində aparılır. Muzey müəssisələri üzrə ümumilikdə 92 mühazirə və tarixi dərs təşkil edilmişdir. Bunlara misal olaraq "Azərbaycan müstəqillik illərində", "M.F.Axundovun həyat və yaradıcılığı, "H.Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır", "H.Əliyev milli mədəniyyətimizin böyük hamisidir", "R.Əfəndiyevin həyat və yaradıcılığı", "S.Rəhman yaradıcılığının Azərbaycan dramaturgiyasındakı yeri və rolu" və s. qeyd etmək olar.

Hesabat ilində Şəki şəhərində fəaliyyət göstərən muzeylərdə 64 mədəni-kütləvi tədbir keçirilmişdir. Həmin tədbirlərə misal olaraq, şəhər 2 saylı orta məktəbin şagirdləri ilə birlikdə R.Əfəndiyev adına tarix-diyarşünaslıq muzeyində təşkil edilmiş "20 yanvar - Ümumxalq hüzn günüdür" mövzusunda kompozisiyanı, müharibə veteranları ilə görüşü, R.Əfəndiyevin ev-muzeyində keçirilmiş "Maarif pərvanəsi" adlı ədəbi-bədii kompozisiyanı, "H.Əliyev müasir Azərbaycan dövlətinin banisidir" mövzusundakı elmi-nəzəri konfransı, S.Rəhmanın ev-muzeyində təşkil edilmiş "Dünya, səndən kimlər keçdi?" adlı ədəbi gecəni və s. qeyd etmək olar.

Yeri gəlmişkən bildirim ki, bütün tarixi əlamətdar günlər və yubiley tədbirləri də müəssisələrimizdə yüksək səviyyədə, geniş ictimaiyyətin iştirakı ilə həyata keçirilmişdir.

***Bunlar bir il ərzində görülmüş işlərin yalnız bir qismidir. Təbii ki, onların hamısını bir jurnal məqaləsində sadalamaq qeyri-mümkündür. Amma görüşümüz bununla bitmir. Düşünürəm ki, növbəti gəlişimizdə həyata keçirilmiş tədbirlərlə bağlı söhbətimiz daha müfəssəl olacaqdır.***

● **TURAL**